Həsən Hüseyn oğlu Rəhimli

UOT:330.8:7.038.6:338.032; JEL:I12;Q20.

Modern və postmodern dövrdə elm və təhsilin iqtisadiyyatda rolunun qiymətləndirilməsi

Xülasə

Məqalədə elm və təhsilin iqtisadiyyatda rolunun bəşər tarixinin iki böyük fikir paradiqması olan modernist və postmodernist prizmadan tarixi və məntiqi təhlili və qiymətləndirilməsi tədqiq olunmuşdur. Müxtəlif cəmiyyətlər elm, təhsil və istehsalın birgə fəaliyyəti əsasında ictimai istehsalın məhsuldarlığının artması ideyasını təsdiq edirlər. Lakin bu ideya tarixin hər bir dövründə fərqli şəkildə dəyərləndirilmiş və tətbiq edilmişdir. Elm və təhsilin iqtisadiyyatda rolu çox böyükdür. Amma tarixi inkişafın ayrı-ayrı mərhələlərində elm, təhsil və istehsalın vəhdətinə eyni səviyyədə diqqət edilməyib. İnkişafın tərkib hissəsi olan iqtisadi inkişafla siyasi və sosial inkişaf arasında korrelyasiya əlaqəsi mövcuddur. Elm və təhsilin inkişafı sosial-siyasi inkişafa və dolayısı ilə də iqtisadi inkişafa böyük töhfələr verir. Amma elm, təhsil və istehsalın vəhdəti prosesinin iqtisadi və humanitar cəhətdən üstünlük və çatışmazlıqları bu prosesin təşkilinin modernist və ya postmodernist paradiqmasından asılıdır. Məhz bu iki paradiqma çərçivəsində elm və təhsilin cəmiyyətin inkişafındakı rolu ciddi surətdə fərqlənir. Həm modern, həm də postmodern dövrdə elm və təhsilin funksiyasını iqtisadi və humanitar hədəflər prizmasından dəyərləndirdikdə aydın görmək olar ki, modern dövr elm və təhsilin humanitar, postmodern dövr isə daha çox iqtisadi funksiyalarını önə çəkir.Bu problemlər üzrə fikir və mülahizələr polemik müzakirələr kontekstində verilmişdir.

Açar sözlər: *industrial cəmiyyət, postindustrial cəmiyyət, modernizm, postmodernizm, elm, təhsil, bilik iqtisadiyyatı, fundamental və tətbiqi elm*

Giriş

Elm, təhsil və istehsalın vəhdəti məsələsinin nəzəri və praktiki aspektləri tarixi inkişafın heç bir mərhələsində indiki qədər aktual olmamışdır. Hesab edirik ki, hazırkı dövrdə elm və təhsilin iqtisadi fəaliyyətlərə birbaşa inteqrasiyası proseslərini anlamaq üçün həm məntiqi, həm də tarixi nöqteyi-nəzərdən bu prosesin institusional əsaslarının (formal və qeyri-formal institutlar) formalaşması və inkişafının sivilizasiyalı yanaşma ilə təhlilindən başlamaq zəruridir. İnsan inkişafı amilləri sırasında mühüm yer tutan elm və təhsil iqtisadiyyatla birbaşa və ya dolayısı ilə sıx əlaqələrə malikdir. Amma tarixi inkişafın hər bir dövründə elm, təhsil və iqtisadi inkişaf arasındakı əlaqələr eyni səviyyədə olmamışdır. İqtisad tarixi üzrə tədqiqatçılar ictimai həyatın bütün sferalarında adekvat dəyişikliklərə səbəb olan yeniləşmə proseslərinin xronoloji dövrləşməsi ilə bağlı müxtəlif baxışları və yanaşmaları növbəti mərhələlər üzrə ümumiləşdirə bilərik: 1) Aqrar dövr (preindustrial dövr); 2) Sənaye dövrü (industrial dövr) və 3) Sənayedən sonrakı dövr (postindustrial dövr) [12, s.81]. İctimai fikrin tarixi istiqamətində aparılmış təhlillərə nəzər etdikdə biz həm industrial cəmiyyətin, həm də postindustrial cəmiyyətin yaranmasına təkan verən amillərə fərqli yanaşmaların olduğunu müşahidə edə bilərik [12, s.78]. Fikrimizcə, bütün sivilizasiya inqilablarını meydana çıxaran, formalaşdıran və ona təsir edən başlıca amil insanların təfəkkür strukturunda yaranan dəyişikliklər və buna paralel olaraq iqtisadi və elmi-texnoloji sahələrdə ortaya çıxan yeniliklərdir. Bu nəticə sənaye cəmiyyətinin modernizm fikir cərəyanı, postsənaye cəmiyyətinin isə postmodernizm fikir axınının təsiri altında formalaşması barədə irəli sürdüyümüz nəzəri hipotezə əsaslanır. Bir sözlə hesab edirik ki, modernizm sənaye cəmiyyətinin, postmodernizm isə postsənaye cəmiyyətinin qeyri-formal institusional əsasını təşkil edir.

©Həsən Hüseyn oğlu Rəhimli Lənkəran Dövlət Universiteti, dissertant. E-mail: rahimli.h@hotmail.com
©AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

Fəlsəfi və iqtisadi fikir tarixi üzrə tədqiqatçılar qeyd edir ki, renensans dövründə (XIV-XVI əsrlər) ictimai fikrin istiqaməti teosentrik çərçivədən çıxaraq, qeyri-ilahi, yəni insanmehvər (antroposentrik) məcaraya daxil oldu. İnsanı öz tərəqqisini, rifahını, bir sözlə, xoşbəxtliyini müstəqil təmin etməyə qadir bir varlıq hesab edən humanist (yalnız insan zəkasına arxalanmaq) dünyagörüşü və təfəkkürünü əsas götürən və onu təbliğ edən intibah cərəyanı, sırf fəlsəfi hərəkat kimi qəbul edilməməlidir. Bu hərəkatın təsiri ilə başda iqtisadi münasibətlər olmaqla incəsənət, ədəbiyyat, elm, din və s. sahələrdə ciddi dəyişikliklər baş verdi [8, s.340]. İdeoloji baxımdan modernizm, milli və dini dəyərlərə bağlanaraq yeniliyi qəbul etməkdən imtina edən mühafizəkar toplumlara qarşı çıxış edirdi. Buna görə də modernizmdə fərdçilik (individualizm) adət və dəyərlərə üstün gəlirdi. Modernizmi ortalığa çıxaran isə modern dönəmdir. Bu dönəm adətçi toplumun baxışları ilə ixtilafda olaraq, şəhərləşmə, sənayeləşmə, dünyaviləşmə (sekulyarizasiya) ilə xarakterizə edilir. Modernizm ümumi fikir axını olaraq əsasən üç sahədə, fəlsəfə, din və elmi istiqamətdə yaratdığı ciddi düşüncə dəyişiklikləri sonrakı dövrlərdə Avropada və ümumilikdə dünyada elmi-texniki tərəqqiyə təkan verdi.

Avropa tarixində modernizm dövrünün əsas teoloji fikir axını olan protestantizm də sənaye cəmiyyətinin yaranmasında ciddi rol oynamışdır. "Protestant etikası və kapitalizm ruhu" əsərində Maks Veber sübut etməyə çalışırdı ki, böyük iqtisadi nailiyyətləri təmin etmiş kapitalizm protestantizm üçün səciyyəvi olan dini motivlərin və dəyərlərin nəticəsi idi. M.Veber protestant etikasından bəhs edərək yazırdı ki, protestant ailəsi uşaq vaxtlarından körpədə əməksevərlik, qənaətçilik, təvazökarlıq, sərhesablıq, işgüzarlıq, peşə borcuna sadiqlik kimi keyfiyyətləri tərbiyə edir. Digər mədəniyyətlərdə "insan yaşamaq üçün işləyir, protestantlar isə işləmək üçün yaşayırlar". Protestantlara görə insanın əməyi uğurludursa, ona var-dövlət gətirirsə, ümid edə bilər ki, cənnətdə əbədi həyat üçün Allah məhz onu seçib. Məhz protestant dini təlimi yorulmadan işləməyi, qənaətçiliyi tələb edir və bu da kapital yığımına səbəb olmuşdur [7,s.27]. Qərbdə intibahdan sonra yaranmış fəlsəfi düşüncə əsasında formalaşmış 300 illik renesans dövrü XVII əsrdə yaranan yeni dövr fəlsəfəsinə uzunmüddətli bir hazırlıq oldu. Təqribən dörd əsr bundan əvvəl, yəni 16-cı əsrdə elm və texnikada böyük dəyişiklik və inqilab baş verdi. Həmin dövrdə dünyanın böyük filosoflarından iki nəfəri – ingiltərəli Frensis Bekon və fransalı Rene Dekart yeni elmin ataları sayılırdı. Xüsusilə Bekonun elm barəsindəki nəzəriyyəsi bütün keçmiş nəzəriyyələri dəyişdirmişdir. Bir çox tədqiqatçılara görə bu nəzəriyyə elmin tərəqqisinə və insanın təbiətə hədsiz hökmranlığına səbəb olmuşdur. Fəlsəfi metodologiyada induktiv metoda üstünlük verən Bekon dolayısı ilə empirik elmlərin tədqiqat metodologiyasını təkmilləşdirərək elmin inkişafı qarşısındakı bir çox maneələri (ehkamçılıq, doqmatizm, apriori və empirik isbatı olmayan deduktiv əqli nəticələr və s.) aradan götürdü. Təbiət elmlərinin tədqiqi üçün yeni metodika yaradan Bekon insanın güc və qüdrət əldə etməsi, təbiətə hakim olması və rifahı üçün texniki və təbiət elmlərini yeganə vasitə sayırdı. Məhz Bekon və Dekartla başlayan rasionalistlər və empiristlər arasındakı metodoloji mübahisələr elmin inkişafına misilsiz faydalar verdi.

Modernist paradiqmanın təşəkkülü dövründə elmin və təhsilin iqtisadiyyatda rolunun dəyərləndirilməsi

Modernizmin elmi sferaya ən böyük təsiri isə pozitivist elmi yanaşmaların meydana çıxması oldu. Pozitivizm fəlsəfəsi elmlərin qarşısında sərt empirik prinsiplər müəyyən edərək elmi inkişafı tamamilə təcrübə və müşahidə proseslərinə tabe edirdi. Beləliklə, modernizm və onun bir çox elementləri industrial cəmiyyətin formalaşması və inkişafının əsasında duran ən mühüm amil hesab edilə bilər. Xüsusi qeyd etmək lazımdır ki, "İndustrial cəmiyyət" termini ilk dəfə sosiologiya elminin banisi olan O.Kont və Q.Spenser tərəfindən irəli sürülmüşdür. Təsadüfi deyildir ki, hər iki tədqiqatçı pozitivizm fəlsəfi cərəyanının nümayəndəsi sayılır.

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

Pozitivizmin əsas müddəaları isə Qərbdə elmin, texnologiyanın və ən nəhayət sənayenin inkişafına çox böyük təsir etmişdir. Sonralar meydana çıxmış neopozitivizm (B.Rassel, R.Karnap) və postpozitivizm (K.Popper) fikir axınlarının elm fəlsəfəsinə gətirdikləri "verifikasiya" və "falsifikasiya" prinsipləri elmin inkişafında əvəzsiz rol oynadı.

Modernizm yarandığı dövrdən təxminən iki əsr sonrakı maarifçilik dövründə (17-18-ci əsrlər) modernizm ilə başlamış elm sahəsindəki irəliləyişlər sənaye sahəsinə də ciddi təsir etmiş, yeni enerji qaynaqları, yeni texnika və texnologiyaların istifadə edilməsi sənaye inqilabının baş verməsinə səbəb olmuşdur. Bir çox tədqiqatçıların qeyd etdiyi kimi, XVIII əsr bəşəriyyət tarixində ən çox dəyişikliklərin baş verdiyi bir zaman kəsimidir. Əslində bütün dəyişikliklər intibahla (renessans) birlikdə başlayan sonralar isə Fransız inqilabı və sənaye çevrilişi ilə inkişaf edən bir zəncirin həlqələri olaraq meydana çıxmışdır. Modernizm dalğası və sənaye cəmiyyətinin üfüqləri XX əsrin ortalarınadək davam etməkdə idi. Sonuncu modernist düşüncə okeanın o tayında, ABŞ-da yaranmağa başladı. Sözü gedən fikir axını praqmatizm idi. Praqmatizm postmodernizmin ilk müjdəçisi də sayıla bilər. Praqmatik həqiqət konsepsiyası fayda gətirən, sərfəli və səmərəli olan və praktikada uğur qazanmağa kömək edən biliyi həqiqət hesab edir. Amerika filosofu və psixoloqu Uilyam Ceyms hesab edirdi ki: "insanlara xeyir verən istənilən ideya həqiqət sayılmalıdır. Bu yanaşmaya əsasən bir nəzəriyyə faydalıdırsa deməli həqiqətdir, praktikada fayda vermirsə o həqiqət sayılmır" [8, s.656]. Praqmatizm xüsusilə ABŞ və İngiltərədə geniş yayılmış və cəmiyyətin yaşam fəlsəfəsi olmuş, eyni zamanda təhsilə və iqtisadiyyata köklü olaraq təsir etmişdir. İnstitusionalizmin fəlsəfəsi praqmatik fəlsəfə idi. Odur ki, institusionalistlər inzibati kapitalizmin iqtisadi siyasəti üçün praktiki tövsiyələr işləyib hazırlayırdılar. İqtisadiyyata dövlətin qarışmasının ümumi problemlərini, məsələn, istehsalda "beyinlər tresti" yaratmaq, texniki ixtisası olanların güclü təsir göstərməsi (texnokratiya nəzəriyyəsi) nəzəriyyələrini bu məktəbin nümayəndələrindən olan Veblen yaratmışdır.

II Dünya müharibəsindən sonra bir çox Avropa ölkəsində iqtisadiyyatın bəzi təməl sahələri milliləşdirilərək dövlət mülkiyyətinə keçirildi. Klassik sənaye inqilabının iqtisadi və sosial düşüncəsinə təməli olan "Laıssez-Faire" yanaşmasından uzaqlaşan hökumətlər mürəkkəb sənaye cəmiyyətinin tələblərini qarşılamaq üçün sosial iqtisadi sahəyə daha çox müdaxilə, sosial rifah, sosial bazar təsərrüfatı və rifah dövləti anlayışlarına yönəldilər. Azad bazar solçu çağırışlardan təsirlənərək öz yerini tənzimlənən sosial yönümlü bazar iqtisadiyyatına verməyə başladı. Qərb ölkələrində 1970-ci illərdə yaşanan iqtisadi böhran 1980-ci illərin əvvəlində neoliberal (neokonservativ) iqtisadi siyasətlərin gündəmə gəlməsi ilə nəticələnmişdir. Bu dönəmdə informasiya texnologiyasına söykənən bilik yatırımlarının (sərmayəsinin) məşğulluq və iqtisadi artım üzərində ciddi təsirlərinin olacağı gözləntiləri bir çox ölkələrdə yayılmağa başladı [10, s.130].

Postmodernist paradiqmada elm və təhsilin iqtisadiyyatda rolunun qiymətləndirilməsi

XX əsrin ictimai-siyasi, mədəni, elmi-texniki sahələrində baş verən əsaslı keyfiyyət dəyişiklikləri iqtisadiyyata böyük təsir göstərmişdir. Yeni yaranmış fikir axını olan postmodernizm ilk növbədə modernist dəyərləri rədd edir, keçmişin klassik mədəniyyətindən söhbət gedəndə isə onu yenidən nəzərdən keçirməyə, çox cəhətləri qəbul etməyə, artıq işlənib hazırlanmış formaları tətbiq etməyə meyl göstərir. Beləliklə, postmodernizm reallığın mövcudluğunu qəbul etmir. Liotar hesab edir ki: "Realizm prinsipi kapitalizmin pul mexanizmindən zərbə alaraq pozulmuşdur. Maraqlıdır ki, məhz Liotar iqtisadçıları ilk postmodernistlər hesab edirdi" [7,s.44]. Filosofların fikirlərinə görə, postmodernist transformasiyaları təkcə mədəniyyətdə deyil, həmçinin, sosial-iqtisadi sferada da baş verir. Bu transformasiyalar informasiya əsrinin başlanması ilə əlaqədardır. İnsanların şüuru ilə

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

manipulyasiya edən peşəkarların meydana çıxdığı bir şəraitdə virtual reallıq yaranır: real olanla real olmayanı, həqiqəti uydurmadan, biliyi mifdən fərqləndirən meyarlar yox olur. İstehsalın yüksək dərəcədə inkişaf etdiyi bir şəraitdə qeyri-maddi dəyərlər sferasına (xidmət, əyləncə industriyası, təhsil sistemi, elm və s.) birinci dərəcəli əhəmiyyət verilir. Müasir həyatda rəmzi istehsal sahəsi misli görünməmiş miqyas əldə edir. Başqa sözlə desək, virtual iqtisadiyyat aləmi yaranır. Real iqtisadiyyat maddi məhsulları, malları, xidmətləri istehsal edirsə, virtual iqtisadiyyat obrazları istehsal edir. Kütləvi istehlak şəraitində əmtəə qismində ön plana onun obrazı, əmtəə nişanı çıxır. Burada müxtəlif vasitələrlə əmtəənin obrazını yaradan reklam aparıcı rol oynayır. Marketoloqlar alıcıları malın özünü almağa yox, cazibəlilik, özünəinam, respektabellik rəmzlərini almağa istiqamətləndirirlər. "Obrazlar və rəmzlər yaradılan sahələr rentabelli sahələr hesab olunur" [7, s.87].

Şüur müstəvəsində postmodernizm, sosial-mədəni müstəvidə bilik cəmiyyətinin iqtisadi müstəvidəki əsas modeli qismində bilik iqtisadiyyatı çıxış edir. Yeni formalaşmaqda olan cəmiyyətin əsasında bilik durduğu üçün onu "bilik" və ya "informasiya" cəmiyyəti, yaxud postsənaye (postindustrial) cəmiyyəti adlandırırdılar. "Postindustrial cəmiyyət" termini isə D.Bell tərəfindən elmi lüğətə daxil edilmiş və D.Bellə görə bu cəmiyyətlər "əsas instituta" görə bir-birindən fərqlənir: beləliklə, industrial cəmiyyətdə "əsas institut" kimi xüsusi mülkiyyət, postindustrial cəmiyyətdə isə yaradıcı bilik çıxış edir. D.Bell cəmiyyətin üç tipini önə çəkirdi: sənayeyə qədər, sənaye və postsənaye cəmiyyətləri. Sənayeyə qədər cəmiyyət insanın təbiətlə qarşılıqlı təsiri üzərində təşkil olunmuşdur: resurslar hasiledici sənaye sahələri tərəfindən təmin olunur, cəmiyyət isə azalan vergi və aşağı məhsuldarlıq qanunlarına tabe olur. Sənaye cəmiyyəti - insanın yeniləşmiş təbiətlə qarşılıqlı təsiridir. Bu qarşılıqlı təsir insanla maşının qarşılıqlı münasibətlərinə əsaslanır və enerjinin təbii ətraf mühitin texniki mühitə keçməsi üçün istifadə olunması prosesinə əsaslanır. Postsənaye cəmiyyəti isə "insanlar arasında oyun" üzərində qurulmuşdur və bu cəmiyyətdə maşın texnologiyasının fonunda informasiyaya əsaslanan intellektual texnologiya hökmran mövqeni tutur.

Ümumiyyətlə, XX əsrdə sosial filosoflar D.Helbreyt, D.Bell, O.Toffler, J.Furastye və başqaları yeni "postindustrial cəmiyyət" konsepsiyasını irəli sürsələr də, hamılıqla təsdiq olunmuş bu terminin "informasiya cəmiyyəti", "elektron cəmiyyəti", "postmodern cəmiyyəti", "bilik cəmiyyəti", "postsənaye cəmiyyəti" və s. kimi başqa variantları da var. Elvin Tofflerin "üçüncü dalğa", Amitai Etzioninin "modern sonrası çağ", George Lichtheimin "burjua sonrası cəmiyyət", Herman Kahnın "iqtisadiyyat sonrası cəmiyyət", Daniel Bellin "Sənaye sonrası toplum", Ralf Dahrendorfun "xidmət sinifi cəmiyyəti", Zbigniev Brzezinskinin "texnokratik dövr", Yoneji Masudanın "informasiya cəmiyyəti" və Piter Drukerin "bilik cəmiyyəti" adını verdiyi bu yeni cəmiyyət tipinin ən təməl məfhumları məlumat (verilənlər), informasiya və bilikdir.

Sənaye cəmiyyətindən bilik (informasiya) cəmiyyətinə keçən ilk ölkə Amerika Birləşmiş Ştatları olmuşdur. İlk dəfə 1950-ci illərdən başlayan və postsənaye cəmiyyətinin institusional bazasını təşkil edən əsas elementlərin formalaşması ilə ABŞ ictimai sferada biliklərə əsaslanan cəmiyyətə, iqtisadi sahədə isə biliklərə əsaslanan iqtisadi inkişaf modelinə keçidi təmin etdi. Bəzi iqtisadi ədəbiyyatlarda bilik əsri də adlanan bu inkişaf mərhələsi, biliyin təməl qaynaq olduğu, bilik istehsalı və kommunikasiyalarının geniş yayıldığı, bilik sahəsində çalışanların əksəriyyət təşkil etdiyi, davamlı öyrənmə və məlumatlanmanın əsas şərt halına gəldiyi yeni bir ictimai və iqtisadi dönəmdir. Bilik cəmiyyətində bilik ən önəmli və təməl resurs sayılır. Bu cəmiyyətdə biliyin istehsalı, bölgüsü, mübadiləsi, istifadəsi və inkişafı ictimai yaşamın əsas xarakteristikası sayılır. Biliyin istehsalı, toplanması və satışı informasiya (bilik) cəmiyyətində yeni iş sahələrinin yaranmasına səbəb olmuşdur. Bu dövrdə bilikdə seçici olmaq önəmli hala gəlmişdir. Bilik sahəsində çalışanların sayı artmış və sənaye

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

cəmiyyətindəki rəqabət, mənfəətpərəstlik, eqoistlik, acgözlük kimi dəyərlər öz yerini bilik cəmiyyətində yerini iştirakçılıq, həmrəylik, fərdiyyətçilik və azadlıq kimi dəyərlərə vermişdir. Mədəni, əxlaqi, mental və dini dəyərlərin yenidən dirçəlməsi müşahidə edilmişdir. Sənaye cəmiyyətində siyasi sistem təmsilçi demokratiya olduğu halda, informasiya cəmiyyətində isə iştirakçı demokratiya anlayışının daha çox diqqət çəkən bir əhəmiyyət qazanacağı düşünülməkdədir. İnformasiya və kommunikasiya texnologiyalarındakı inkişaflar nəticəsində adına tele-demokratiya deyilən bir dəyişmənin irəlidəki illərdə yaşanacağı təxmin edilməkdədir.

Qərb ölkələrinin dünya üzərindəki hegemonluğu bilik, texnologiya və sənaye gücləri hesabına gerçəkləşmişdir. Yeni biliklərə əsaslanan iqtisadiyyatda zəka iqtisadiyyatı, kompüter texnologiyası, intensiv bilik istehsalı dəyər qazandı. Bilik iqtisadiyyatın başlıca xammalı və ən önəmli məhsulu halına gəldi. Zənginlik, rifah və qüdrət əldə etmək üçün lazım olan kapital elementləri, fiziki əmək, tüstülü sənaye maşınları, fabrik və zavodlar yerini biliyə verdi. Bu yeni dövrdə ağıl iqtisadiyyatı, kompüter texnologiyası, intensiv bilik istehsalı, hətta qabaqcıl sənaye cəmiyyətlərini də üstələyən dəyər qazandı. Sərvət, torpaq, fiziki əmək, istehsal vasitələri və fabriklər yaratmaq üçün lazım olan kapital vəsaitləri informasiyalarla əvəz olundu [10, s.124]. İnformasiya dövrü informasiya istehsalının və ünsiyyətinin geniş yayıldığı, bilik işçilərinin əksəriyyətində olduğu yeni bir sosial-iqtisadi dövrdür və bu dövr davamlı öyrənmə dövrüdür. Qərbin, xüsusilə ABŞ-ın sosial-iqtisadi inkişaf tendensiyalarını təhlil edən müəlliflər belə bir qənaətə gəlmişdilər ki, postsənaye cəmiyyəti mallar istehsal edən iqtisadiyyatdan xidmət edən iqtisadiyyata keçidlə səciyyələnir. Bu iqtisadi inkişaf mərhələsində bilik və informasiya əsas iqtisadi resurs sayılır.

Məlumdur ki, postsənaye cəmiyyəti xidmətlər üzərində qurulmuşdur. Əgər sənaye cəmiyyəti həyat səviyyəsinə təsir edən əmtəələrin kəmiyyətinə görə müəyyənləşirsə də, postsənaye cəmiyyəti müxtəlif xidmətlərlə - səhiyyə, təhsil, turizm, rekreasiya, mədəniyyət və s. ölçülən həyatın keyfiyyəti ilə xarakterizə olunur. Bu cəmiyyətdə bilik və informasiya əsas resursa çevrilir, peşəkarlıq isə sosial statusun əsas meyarına çevrilir. Sənaye cəmiyyəti məhsul istehsal edən cəmiyyət olduğu kimi, postsənaye cəmiyyəti də informasiya cəmiyyəti kimi çıxış edir. Postsənaye cəmiyyəti ikili mənada bilik cəmiyyəti kimi çıxış edir: 1) innovasiyaların mənbəyi kimi daha çox nəzəri biliklərə əsaslanan fundamental tədqiqatlar və elmi-nəzəri kəşflər çıxış edir və 2) cəmiyyətin inkişafı birmənalı şəkildə bilik sahəsindəki nailiyyətlərlə müəyyənləşir. Müasir postsənaye iqtisadiyyatda bilik, yaradılan əlavə dəyərin başlıca mənbəyi olduğu kimi, rəqabət gücünü də təmin edən əsas amildir. Artıq dünyada ucuz xammala, ucuz əmək ehtiyatlarına əsaslanan iqtisadiyyatlar, biliyə, yüksək texnologiyaya əsaslanan iqtisadiyyatlar qarşısında rəqabət etməkdə çətinlik çəkirlər. Postindustrial cəmiyyətdə informasiya və bilik müasir cəmiyyətin əsas inkişaf amilinə çevrilir. Sənaye inkişaf mərhələsindən postsənaye mərhələsinə keçən ölkələrin inkişafı və rəqabətə davamlılığında bilik və informasiya məhsulları istehsalı sahələri son dərəcə böyük rol oynayır. Basqa sözlə, müasir dövrdə ölkələrin inkişafı elmtutumlu sahələrin, o cümlədən texnoloji innovasiyaların, yeni texnologiyaların inkişafından çox asılıdır.

Hazırda, elmə gələn maliyyə resurslarının həcmi azaldığı, lakin alimlərin yüksək gəlir əldə etmək istəyi azalmadığı bir vaxtda tədqiqatların aparılmasının maya dəyəri yüksək olaraq qalır, resursların get-gedə daha çox hissəsi rəqabət əsasında bölüşdürülür. Elm tədricən kommersiya müəssisəsi forması alır, alimlər ideyalar bazarında sahibkar olurlar. Dünyanın bütün ölkələrində, o cümlədən Rusiyada baş verən bu proses Amerika sosioloqu Q.Etskovets tərəfindən "ikinci akademik inqilab" adlandırılmışdır və bu, "akademik kapitalizm" dövrünün gəldiyindən xəbər verir. Amma akademik kapitalizmin güclənməsi eyni zamanda həm

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

anqlosakson, həm də sovet elminin təşkil modelinin böhranıdır. Bəşəriyyətin F.Bekondan qabaqkı böyük filosof və şəxsiyyətləri, xüsusilə dini alimlər elmdən güc və qüdrət deyil, həqiqət yolunda istifadə ediblər. Belə ki, onlar insanları elm öyrənməyə təşviq edəndə, elmin insanı həqiqətə çatdırmasına əsaslanaraq elmi müqəddəs, yəni insanın mənafeyindən və maddi məsələlərdən üstün müqəddəsliyə malik bir həqiqət hesab edirdilər. F.Bekondan sonrakı modernist mütəfəkkirlərə görə elmin inkişafına kommersiya və maddi inkişaf nöqteyi-nəzərdən yanaşmaq bəşəriyyətə çox böyük xidmət edib. Çünki elm insanın təbiətə hökmranlığı və ondan daha çox bəhrələnməsi üçün təbiəti kəşf etmək yoluna düşdü və həmin nəzəriyyə bu baxımdan yaxşıdır. Amma bununla yanaşı, postmodern dünyada elm, malik olduğu müqəddəslik, ucalıq və paklığını da itirib.

Posindustrial cəmiyyət konsepsiyasının müəllifləri bir çox neqativ sosial-iqtisadi proseslərin baş verdiyini söyləyirlər. Söhbət siyasi texnologiyalar proqramlarının, yəni insanların şüur və davranışının manipulyasiya mexanizmlərinin gücləndirilməsindən, insanların fəaliyyətin subyektindən passiv obyektə çevrilməsindən gedir. Mütəxəssislər qeyd edirlər ki, postsənaye dünyası humanist ideallardan getdikcə uzaqlaşır. İnformasiya dövründə kütləvi mədəniyyət, videokliplər sənayesi və zəhlətökən reklam geniş vüsət alır. Bunun nəticəsində insanlarda gedonist istehlakçı meyilləri artır. Bilik iqtisadiyyatı işgüzar həyatda bilik işçilərinin lazımi şəkildə idarə edilə bilinməməsi və ya gərəkən bilgi, bacarıq yaxud motivasiyaya sahib olmayan insanların həyat standartlarındakı azalmalar önəmli problemlər kimi ortaya çıxır. Hər bir sahədə texnologiyaların sürətlə dəyişməsi bir çox qurumlarda ciddi müqavimətlərlə qarşılaşır. Buna inkişaf edən texnologiyaların diktator rejimlər tərəfindən sui-istifadəsi, nüvə texnologiyaların terrorist qruplaşmaların əlinə keçmə ehtimalı və s. misal göstərmək olar. Elmin kommersiyalaşması ABŞ-da tibb, molekulyar biologiya (müdafiə məqsədli tədqiqatlara - fizika, kosmos kimi sahələrə - maliyyə dəstəyinin azaldığı bir vaxtda, məhz bu sahələrə vəsait qoyuluşu artır) kimi sahələrdə xüsusilə bariz görünür; kommersiyalaşmanın mühüm göstəricisi - Amerika akademik qurumlarının aldıqları patentlərin sayının artmasıdır. Akademik kapitalizmin güclənməsi eyni zamanda həm anqlosakson, həm də sovet elminin təşkil modelinin böhranıdır.

Nəticə

Cəmiyyətin sosial-iqtisadi və mənəvi inkişafında mühüm yer tutan elm və təhsil iqtisadiyyatla birbaşa və ya dolayısı ilə sıx əlaqələrə malikdir. Amma tarixi inkişafın hər bir dövründə elm və təhsil ilə iqtisadi inkişaf arasındakı əlaqə eyni səviyyədə və keyfiyyətdə olmamışdır. Modernizmin yaranması ilə ilk dəfə olaraq elmin cəmiyyətdəki rolu kəskin şəkildə dəyişdi. Elm humanist məqsədlərə çatmaq (insanın və cəmiyyətin inkişafı) üçün yeganə vasitə hesab edildi. Cəmiyyətin sosial-iqtisadi inkişafında elmin iqtisadi funksiyasına isə daha az əhəmiyyət verilirdi. Praqmatik nəzəriyyələrin və sonradan da postmodern fikirlərin ortaya çıxması ilə elm və təhsil humanitar hədəflərindən daha çox iqtisadi hədəflərə fokuslandı. Postindustrial cəmiyyətdə elm və təhsil həqiqəti tapmaq, doğru fikirləri və yaxşı davranışları müəyyən etməyə yönəlik vəzifələrə sahib deyil. Elm və təhsil postindustrial dövrdə iqtisadi inkişafın əsas hərəkətverici qüvvəsinə çevrilmişdir. Bununla da elm və təhsilin iqtisadiyyatda rolu modern industrial dövr ilə müqayisədə əhəmiyyətli dərəcədə artmışdır.

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

Ədəbiyyat

1. Bayramov Ə.İ. İqtisad elminin fəlsəfəsi: zaman, həqiqət və azadlıq. Bakı: "Gənclik", 2016.
2. Hacıyev Ş.H., Bayramov Ə.İ. Dünya iqtisadiyyatının tarixi. Bakı: "İqtisad Universiteti", 2010.
3. Mail Yaqub. "Din fəlsəfəsi", Qanun Nəşriyyatı, Bakı-2017.
4. Muradov A.N. Elmi-texniki potensial: əsas inkişaf meylləri və problemləri. Bakı, 2005.
5. Özlem Çakmak. Eğitimin ekonomiye ve kalkinmaya etkisi (The Influence of Education on Economy and Development). D.Ü.Ziya Gökalp Eğitim Fakültesi Dergisi 11, –2008.
6. İqtisadi nəzəriyyə: mikroiqtisadiyyat 1,2 (ruscadan tərcümə). / Q.P.Juravlyovanın redaktorluğu ilə. Bakı-2010.
7. İqtisadiyyat fəlsəfəsi. Bakı: "İqtisad Universiteti", 2009.
8. Skirbekk.Q, Gilye.N. Fəlsəfə tarixi: Müasir dünyanın fəlsəfi qaynaqlarına bir baxış, Bakı, "Zəkioğlu" nəşriyyatı, 2007.
9. Süleyman Kevük. Bilgi ekonomisi (Knowledge economy) // Journal of Yasar University, 1(4), 2006, – s. 319-350.
10. Yenal Ünal. Bilgi toplumunun tarihçesi // Tarih Okulu. Sonbahar 2009. Sayı V,s. 123

Хасан Гусейн оглы Рагимли

Оценка роли науки и образования в экономике современности и постмодерна

Резюме

В статье проводится историко-логический анализ роли науки и образования в экономике через призму модернизма и постмодернизма, двух основных парадигм истории человечества. Известно, что разные общества поддерживают идею повышения производительности общественного производства на основе совместной деятельности науки, образования и производства. Однако в каждый исторический период эта идея оценивалась и применялась по-разному. Роль науки и образования в экономике очень велика. Но на разных этапах исторического развития единство науки, образования и производства не получало одинакового внимания. Научные исследования показывают, что существует взаимосвязь между экономическим развитием, которое является неотъемлемой частью развития, и политическим и социальным развитием. Развитие науки и образования вносит большой вклад в социально-политическое развитие и, как следствие, в экономическое развитие. Но экономические и гуманитарные преимущества и недостатки процесса интеграции науки, образования и производства зависят от модернистской или постмодернистской парадигмы организации этого процесса. Потому что в рамках этих двух парадигм роль науки и образования в развитии общества существенно различается. При оценке функции науки и образования как в современные, так и в постмодернистские времена через призму экономических и гуманитарных целей становится ясно, что современный период подчеркивает гуманитарные и постмодернистские экономические функции науки и образования.

Ключевые слова: *индустриальное общество, постиндустриальное общество, модернизм, постмодернизм, наука, образование, экономика знаний, фундаментальная и прикладная наука.*

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

Hasan Huseyn Rahimli

Assessment of the role of science and education in the economy of modernity and postmodernity

Summary

The article provides a historical and logical analysis of the role of science and education in the economy through the modernist and postmodernist prisms, two major paradigms of human history. It is known that different societies support the idea of increasing the productivity of social production on the basis of joint activities of science, education and production. However, this idea has been evaluated and applied differently in each period of history. The role of science and education in the economy is very large. But at different stages of historical development, the unity of science, education and production has not received the same level of attention. Scientific research shows that there is a correlation between economic development, which is an integral part of development, and political and social development. The development of science and education makes a great contribution to socio-political development and, consequently, to economic development. But the economic and humanitarian advantages and disadvantages of the process of integration of science, education and production depend on the modernist or postmodernist paradigm of the organization of this process. Because within these two paradigms, the role of science and education in the development of society differs significantly. When evaluating the function of science and education in both modern and postmodern times through the prism of economic and humanitarian goals, it is clear that the modern period emphasizes the humanitarian and postmodern economic functions of science and education.

Key words: *industrial society, postindustrial society, modernism, postmodernism, science, education, knowledge economy, fundamental and applied science*

Elmi redaktor: i.f.d., dos. Y.Məmmədov
Daxil olub: 03.02.2021.
Çapa qəbul olunub: 08.02.2021.

© *AMEA İqtisadiyyat İnstitutu*
© *www.economics.com.az*